**Tələbə-Rektor – ƏSASNAMƏ**

**Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə rektorunun seçkiləri və statusu haqqında**

**Ə S A S N A M Ə**

- **ÜMUMİ MÜDDƏALAR**

**Maddə 1. Tələbə rektorun seçkiləri**

1.1.Azərbaycan Dövlət İqtisad Universitetinin (bundan sonra ―UNEC ) tələbə rektoru universitetin əyani təhsil alan tələbələri arasından (IV kurs və yuxarı – istisnadır) bir il müddətinə seçilir.

**Maddə 2. Tələbə rektorun statusu**

- Tələbə rektor UNEC-də təhsil alan tələbələrinin maraqlarını təmsil etmək üçün seçilən nümayəndədir.
  - Tələbə rektor ictimai əsaslarla çalışır.
  - Tələbə rektor universitetin bərabərhüquqlu idarəetmə orqanlarından biridir, UNEC-nun elmi şurasının və digər struktur bölmələrinin fəaliyyətində, eləcə də tələbələrin maraqlarını əhatə edən məsələlərin müzakirəsi və qərarların qəbul edilməsi prosesində iştirak etmə hüququna malikdir.
  - Tələbə rektor gənclərlə iş üzrə müvafiq orqanlarla qarşılıqlı münasibətlərin qurulması məsələləri ilə əlaqədar təmsilçilik və ekspert funksiyalarını yerinə yetirir, ona verilən səlahiyyətlər daxilində universiteti və onun tələbələrinin maraqlarını digər təhsil müəssisələri ilə münasibətlərdə təmsil edir.

**Maddə 3. Tələbə rektorun seçkilərinin əsas prinsipləri**

3.1. Tələbələr gizli səsvermə yolu ilə bərabər və birbaşa seçki hüququ əsasında tələbə rektorun seçkilərində iştirak edirlər.

3.2.Seçkilərdə iştirak sərbəst və könüllüdür. Seçkilərdə iştirak etmək, yaxud seçkilərə qatılmamaq, habelə öz iradələrini sərbəst şəkildə ifadə etmələrinə mane olmaq üçün tələbələrə təzyiq göstərilə bilməz.

**Maddə 4. Tələbə rektorun seçkilərinin hazırlanması və keçirilməsi**

- Tələbə rektorun seçkilərinin hazırlanması və keçirilməsinə UNEC-nun əməkdaşları və tələbələrindən formalaşmış seçki komissiyası rəhbərlik edir.
    - Seçki komissiyası 11 nəfərdən az olmamaq şərti ilə yaradılır.
    - Seçki komissiyasının sədri, müavini və katibi yaradılmış seçki komissiyasının üzvləri arasından, onun ilk iclasında açıq səsvermə yolu ilə seçilir.

**Maddə 5.Seçkilərin keçirilmə qaydası və müddəti**

- Tələbə rektorun seçkilərinin təyin edilməsinə dair qərar əvvəlki Tələbə rektorun seçildiyi müddətin başa çatdığı tarixdən əvvəl, 30 gündən gec olmayan müddət ərzində qəbul edilməlidir. Tələbə rektorun səlahiyyətlərinə vaxtından əvvəl xitam verildikdə, növbəti seçkilərə qədər onun öhdəliklərinin icrası Tələbə rektorun son seçkilərində səslərin sayına görə ikinci yeri tutmuş namizədə həvalə edilir. Bununla bağlı qərar qüvvədə olan Seçki Komissiyası tərəfindən əvvəlki Tələbə rektorun səlahiyyətlərinə xitam verilməsindən əvvəl, 7 gündən gec

olmayaraq qəbul edilir.

5.2. Tələbə rektorun seçkilərində səsvermə, səsvermə gününün təyin edilməsinə dair qərarın qəbul edildiyi tarixdən etibarən, 20 gündən gec olmayaraq həyata keçirilməlidir.

5.3.Seçkilərdə səsvermə yalnız iş gününə təyin edilə bilər. Səsvermənin bayramqabağı günə, yaxud iş olmayan bayram gününə təyin edilməsinə yol verilmir.

5.4.Tələbə rektorun seçkilərinin təyin edilməsi haqqında qərar UNEC-in rektoru tərəfindən qəbul edilir.

**Maddə 6. Seçkilərin hazırlanması və keçirilməsinin aşkarlığı**

- Seçkilərin hazırlanması və keçirilməsi açıq və aşkar şəkildə aparılır.
  - Seçkilərin təyin edilməsinə dair qərar UNEC-in saytında dərc edilmə
  - Tələbə rektorun seçkilərinin hazırlanması və keçirilməsi ilə bağlı qərarlar birbaşa UNEC-nun saytında və məlumat lövhələrində dərc edilir, yaxud başqa üsulla tələbələrin diqqətinə çatdırılır.

## II. SEÇİCİLƏRİN SİYAHISININ TƏRTİB EDİLMƏSİ

**Maddə 7.  Seçicilərin siyahısının tərtib edilməsi**

- Seçicilərin siyahısı Seçki Komissiyasının iclasında təsdiq edilmiş formada, səsvermə zamanı Tələbə rektorun seçkilərində səs verənlərin iştirak etməsi faktı üzrə tərtib edilir.
  - UNEC-də təhsil alan bütün əyani tələbələr Tələbə rektorun seçiciləri sayılır.
  - Tələbə bileti, qiymət kitabçası və ya seçicinin səsvermə zamanı 7.2 bəndində göstərilən kateqoriyaya aidliyini təsdiqləyən başqa bir etibarlı sənəd seçicilərin siyahısına daxil edilmək üçün əsas sayılır.

## III. NAMİZƏDLƏRİN İRƏLİ SÜRÜLMƏSİ VƏ QEYDİYYATI

**Maddə 8. Namizədlərin irəli sürülməsi hüququ**

- UNEC-in əyani təhsil alan, akademik borcu olmayan tələbələri (axırıncı kurs tələbələri istisnadır) UNEC-in tələbə rektoru vəzifəsinə öz namizədliyini irəli sürmək hüququna malikdirlər.

8.2. UNEC-in əvvəllər tələbə rektoru vəzifəsini tutmuş tələbəsi o halda öz namizədliyini tələbə rektorun seçkilərində təkrar irəli sürə bilməz ki, ekspert komissiyasının apardığı təhlil nəticəsində onun fəaliyyətinin nəticələri qeyriqənaətbəxş hesab edilsin. UNEC-in Seçki Komissiyasını formalaşdıran üzvlər, UNEC-in rektoru və tələbələrlə iş üzrə prorektoru Ekspert komissiyasının tərkibinə

daxil edilir.

8.3.Tələbə rektorun fəaliyyətinin nəticələrinin qeyri-qənaətbəxş hesab edilməsi haqqında qərar o zaman qəbul edilmiş sayılacaq ki, buna ekspert komissiyasında səslərin ən azı 2/3 hissəsi verilmiş olsun.

**Maddə 9. Namizədlərin qeydə alınması üçün seçki sənədlərinin təqdim edilməsi**

9.1. Namizəd, qeydiyyat məqsədi ilə Tələbə rektorun seçki kampaniyasının reqlamentində müəyyənləşdirilən müddət ərzində aşağıdakı sənədləri Seçki

Komissiyasına təqdim etməlidir:

- yazılı ərizə
- namizədin anketi (CV);
- tələbə biletinin, yaxud universitetdə əyani təhsil aldığını sübut edən digər müvafiq sənədin surəti;

ç) oxuduğu müddətdə aldığı qiymətlər haqqında fakültə dekanının arayışı;

- Tələbə rektor qismində fəaliyyət proqramının layihəsi (seçkiqabağı platforma, yazılı və elektron formada).

**Maddə 10. Namizədin qeydə alınması**

10.1.Namizədin qeydiyyatı Seçki Komissiyası tərəfindən bu Əsasnamənin 9.1 bəndinə uyğun olaraq təqdim edilən sənədlər əsasında həyata keçirilir.

- Seçki Komissiyası, Tələbə rektorun seçki kampaniyası haqqında reqlamentlə müəyyənləşdirilən müddətdə namizədin qeydə alınması, yaxud alınmaması haqqında əsaslandırılmış qərar qəbul etməlidir.
    - Namizədin qeydə alınmasına dair qərarda qeydiyyat haqqında qərarın qəbul edildiyi tarix və yer göstərilmə
    - Namizədin qeydə alınmasına rədd cavabı verildikdə, Seçki Komissiyası bu qərarın qəbul edildiyi tarixdən etibarən bir gün ərzində bu barədə müvafiq namizədə məlumat vermə Qeydiyyatdan imtina üçün əsas aşağıdakılar hesab edilə bilər:
- qeydiyyat üçün təqdim edilən sənədlərin arasında bu Əsasnaməyə uyğun olaraq tələb edilən sənədlərin olmaması;
- Namizəd tərəfindən təqdim edilmiş sənədlərdə məlumatların qeyri-dəqiq və

yanlış olması;

- Tələbə rektorun fəaliyyət proqramı layihəsinin kifayət dərəcədə işlənməməsi; – Namizəd tərəfindən vəzifə və xidməti üstünlüklərdən istifadə edilmə
    - Namizdin qeydə alınmasına əsaslandırılmış rədd cavabı verildikdə, onun irəli sürülməsi qeyri-mümkündür.
    - Tələbə rektorun seçki komissiyasının reqlamenti ilə müəyyənləşdirilən müddətdə Seçki Komissiyası UNEC-in saytı və məlumat lövhələrində namizəd haqqında məlumatları təmin etmə

**IV. NAMİZƏDİN STATUSU**

**Maddə 11. Namizədlərin bərabərliyi**

11.1. Bütün namizədlər bərabər hüquqlara və öhdəliklərə malikdirlər.

11.2. Hər bir namizəd bir müşahidəçi təyin etmək hüququna malikdir.

11.3. Müşahidəçi səsvermənin keçirilməsi, seçicilərin səslərinin sayılması və səsvermənin keçirildiyi müddətdə Seçki Komissiyasının həyata keçirdiyi digər fəaliyyəti izləmək, səsvermənin nəticələrinin müəyyənləşdirilməsi, o cümlədən

səsvermənin nəticələrinin düzgünlüyünün yoxlanılması və səsverməninnəticələrinin müəyyənləşdirilməsi prosesini izləmək səlahiyyətinə

malikdir.

11.4. Bütün namizədlərə reklam vaxtından və UNEC-in reklam daşıyıcılarından istifadə etmək (sayt, mətbu orqanlar, məlumat lövhələri) üzrə bərabər hüquq

verilir.

11.5. Namizəd, Tələbə rektorun Seçki Kampaniyasının Reqlamentində müəyyənləşdirilən müddətdə öz gücü və ya tələbələrin dəstəyi ilə ən azı üç reklam

tədbirini həyata keçirməlidir.

11.6. Namizəd Seçki Komissiyasının təşkil etdiyi bütün reklam, informasiya aksiyaları və debatlarda iştirak etməlidir.

**Maddə 12. Vəzifə və ya xidməti mövqe ilə bağlı məhdudiyyətlər**

12.1. İctimai təşkilatların nümayəndələri olan namizədlər, o cümlədən kütləvi informasiya vasitələrinin buraxılışını həyata keçirən təşkilatların təmsilçisi olan namizədlər seçki kampaniyalarının keçirildiyi müddətdə tutduqları vəzifə və ya xidməti mövqedən istifadə edə bilməzlər.

## V. NAMİZƏDLƏR TƏRƏFİNDƏN REKLAM KAMPANİYASININ KEÇİRİLMƏ QAYDASI

**Maddə 13. Namizədlərin reklam kampaniyası**

13.1. Namizəd özünün reklam işlərini yalnız adının namizədlərin siyhısına daxil edilməsindən sonra Tələbə Rektorunun seçki kampaniyası haqqında Reqlamentlə müəyyənləşdirilən müddətdə həyata keçirə bilər.

13.2. Reklam kampaniyası çərçivəsində namizədlər reklam tədbirlərinin  və digər bu kimi aksiyaların həyata keçirilməsi üçün UNEC-in tələbələrini və digər şəxsləri ictimai əsaslarla cəlb edə bilərlər.

13.3. Reklam aksiyasının həyata keçirildiyi yer və vaxt baxımından, namizəd həmin aksiyaların keçirilməsindən əvvəl, 2 gündən gec olmamaq şərti ilə bunu Seçki Komissiyası ilə razılaşdırmalıdır.

13.4. Namizəd ictimai tədbirlərdə iştirak etməkdən imtina etdikdə, namizədliyi ilə bağlı reklam aksiyalarını və digər reklam tipli tədbirlərihəyata keçirmədikdə,onun namizədliyi seçkilərə buraxılmır, qeydiyyatı isə Seçki Komissiyası tərəfindən ləğv edilir.

- **SƏSVERMƏNİN TƏŞKİLİ VƏ QAYDASI, SEÇİCİLƏRİN**

**SƏSLƏRİNİN SAYILMASI, SEÇKİLƏRİN NƏTİCƏLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ ONLARIN DƏRCİ**

**Maddə 14. Seçki bülleteni**

14.1. Seçkilərdə iştirak etmək üçün seçici seçki bülletenini almalıdır.

14.2. Bülletenlər Seçki Komissiyasında hazırlanır. Bülletenin forma və sayı seçki komissiyası tərəfindən müəyyənləşdirilir. Bülletenin mətni onun yalnız bir üzündə yerləşdirilməlidir. Bülletenləri nömrələməyə yol verilmir.

14.3. Seçki bülletenində qeydə alınmış namizədlərin soyadları əlifba sırası ilə yazılır, bu halda bülletendə hər bir qeydə alınmış namizəd haqqında aşağıdakı məlumatlar yer alır:

- soyadı, adı, atasının adı
- doğum tarixi

- Namizədin təhsil aldığı fakültə və kursu

**Maddə 15. Səsvermə qaydası**

15.1. UNEC-in Seçki Komissiyası əlində olan informasiya vasitələri ilə, Tələbə rektorun seçki kampaniyası haqqında Reqlamentə uyğun olaraq seçicilərə səsvermənin yeri və vaxtını bildirməlidir.

15.2. Səsvermə üçün otaq, seçki prosedurasına tətbiq edilən tələblər nəzərə alınmaqla Seçki Komissiyası tərəfindən müəyyənləşdirilir.

15.3. Səsvermə saat 10:00-dan 17:00-a qədər keçirilir. 17:00-dan sonra səsvermə üçün ayrılan otağa yalnız Seçki Komissiyasının üzvləri və namizədlərin müşahidəçiləri daxil ola bilərlər.

15.4. Hər bir seçici şəxsən səs verir, digər şəxslərin əvəzinə səs verməyə icazə verilmir.

15.5. Səsvermə seçici tərəfindən seçki bülletenində lehinə səs verdiyi müvafiq namizədin adının qarşısındakı kvadratın içində istənilən işarəni qoymaqla həyata keçirilir.

15.6. Seçici hesab etsə ki, seçki bülletenini doldurduqda səhvə yol vermişdir, seçki bülletenini vermiş Seçki Komissiyasının üzvünə korlanmış bülletenin əvəzinə ona yeni seçki bülletenini vermək xahişi ilə müraciət edə bilər. Seçki Komissiyasının üzvü seçiciyə yeni seçki bülletenini verir, bundan sonra korlanmış seçki bülleteni ləğv edilir.

15.7. Doldurulmuş bülleten seçicilər tərəfindən möhürlü səsvermə yeşiyinə salınır (UNEC-in gerbli möhürü ilə).

15.8. Səsvermə başa çatdıqdan sonra Seçki Komissiyası bülletenləri səsvermə yeşiyindən çıxarır və səslərin sayılmasına start verilir. Etibarsız bülletenlər sayılır və ayrıca xülasə edilir. O bülletenlər etibarsız hesab edilir ki, namizədin soyadının qarşısında yerləşdirilən kvadrata qeyd edilməsin və ya göstərilən kvadratda bir neçə belə qeyd edilmiş olsun. Seçici iradəsinin ifadəsini müəyyənləşdirməkdə şübhə yarandıqda, bu bülletenlər ayrıca yığılır. Çeşidləmə başa çatdıqdan sonra Seçki Komissiyası səsvermə yolu ilə bütün şübhəli bülletenlərin etibarlılığı

haqqında məsələni həll edir, bu halda bülletenin arxa tərəfində onun etibarlı və ya etibarsız hesab edilməsinin səbəbi qeyd edilir. Bu qeyd Seçki Komissiyasının ən azı iki üzvü tərəfindən imzalanıb təsdiq edilir. Etibarlı və ya etibarsız sayılan bülleten müvafiq bülleten tipinə aid edilir. Etibarsız bülletenlərin ümumi sayı (bu bəndə uyğun şəkildə etibarsız sayılan bülletenlərin sayını nəzərə almaqla) səsvermənin nəticələri haqqında yekun protokola daxil edilir.

15.9. Seçkilərin keçirilməsi və səslərin sayılması prosesini izləmək məqsədi ilə hər bir namizəd səsvemə otağına bir müşahidəçi göndərmək hüququna malikdir, bununla əlaqədar namizəd, müşahidəçinin soyadını, adı və atasının adını göstərməklə yazılı məlumatı səsvermədən əvvəl, 24 saatdan gec olmayaraq Seçki Komissiyasına təqdim etməlidir.

**Maddə 16. Səsvermənin nəticələrinin müəyyənləşdirilməsi**

16.1. Seçkilərin keçirildiyi gün Seçki Komissiyası seçicilərin səslərini sayır, səsvermənin nəticələri haqqında protokol tərtib edir.

16.2. Sadə səs çoxluğu ilə üstünlük qazanmış namizəd UNEC-in tələbə rektoru vəzifəsinə seçilmiş sayılır. Bu səslərin maksimum 1/3-i təhsil aldığı fakültədən toplana bilər.

16.3. Səsvermənin nəticələri haqqında protokol təsdiqləndikdən sonra Seçki

Komissiyası sədrin timsalında Tələbə Rektorun seçki kampaniyası haqqında Reqlamentdə göstərilən müddət ərzində seçkilərin nəticəsini elan etməlidir.

16.4. UNEC-in tələbə rektoru seçilmiş şəxs seçkinin nəticəsi elan edildikdən dərhal sonra səlahiyyətlərinin icrasına başlayır.

**Maddə 17. Səsvermənin nəticələrinin dərc edilməsi**

17.1. Hər bir namizəd üzrə səsvermənin nəticələrini göstərməklə ümumi seçki nəticələri UNEC-nun saytı və məlumat lövhələrində dərc edilməlidir.

**Maddə 18. Əsasnaməyə dəyişiklik, düzəliş və dəqiqləşdirmələrin daxil edilməsi**

18.1. Seçkilərarası dövrdə bu Əsasnaməyə dəyişiklik, düzəliş və dəqiqləşdirmələrin daxil edilməsi hüququ yalnız təhsil müəssisəsinin administrasiyasına aiddir.

**Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə rektorunun seçkiləri üzrə Komissiyasına**

Soyadı, adı, atasının adı,

**ƏRİZƏ**

"Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə rektorunun seçkiləri və statusu haqqında" Əsasnamənin 8.1. bəndinə uyğun olaraq, Tələbə rektor vəzifəsinə namizədliyimi irəli sürürəm.

**Seçkilərin hazırlanması, keçirilməsi qaydaları eləcə də prosedurları ilə tanış olmuşam və razıyam.**

Doğum tarixi
Namizədin ünvanı
Fakültə, kurs, qrup
Tələbə biletinin və ya qiymət kitabçasının nömrəsi